İPƏK YOLU, No.3, 2023, səh.159-163

# V. VULFUN "ŞƏXSİ OTAQ" ESSESİ FEMİNİZMİN İLK DALĞASI KİMİ

**Əzizə Salamova**

Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
e-mail: azizasharifova@gmail.com

**Xülasə**. Məqalədə Virciniya Vulfun "Şəxsi otaq" essesində, XIX-XX əsrlərin sonunda İngiltərədə feminist hərəkatının dalğalanması və feminist tənqidi ədəbiyyatın inkişafındakı əhəmiyyəti öyrənilir. Viktoriya İngiltərəsi dövründə qadınların ədəbi əsərlərinin kişi yazıçılar tərəfindən son dərəcə tənqid edilməsi və qadının intellektual yaradıcılığına məhz bu münasibətdən irəli gələrək sonda V. Vulfun müasir feminist tənqidi ədəbiyyatının inkişafına töhfə verən "Şəxsi otaq" essesi ədəbiyyatşünaslar tərəfindən qəbul edilməsi məsələləri araşdırılır.

**Açar sözlər**: feminizm, qadın hərəkatı, patriarxal cəmiyyət, anti-feminist nəzəriyyə.

## V. WOOLF'S ESSAY "A ROOM OF ONE'S OWN" AS THE FIRST WAVE OF FEMINISM

**Aziza Salamova**
*Azerbaijan University of Languages, Baku, Azerbaijan*

**Abstract**. The article examines Virginia Woolf's essay "Private Room", the rise of the feminist movement in England at the end of the 19th and 20th centuries and its importance in the development of feminist critical literature. In the period of Victorian England, women's literary works were highly criticized by male writers, and it is precisely because of this attitude towards women's intellectual creativity that V. Woolf's essay "Private Room", which contributed to the development of modern feminist critical literature, was accepted by literary critics.
**Keywords**: feminism, women's movement, patriarchal society, anti-feminist theory.

## ЭССЕ В. ВУЛЬФА «СВОЯ КОМНАТА» КАК ПЕРВАЯ ВОЛНА ФЕМИНИЗМА

**Азиза Саламова**
*Азербайджанский Университет Языков, Баку, Азербайджан*

**Резюме.** В статье рассматривается эссе Вирджинии Вульф «Частная комната», зарождение феминистского движения в Англии в конце XIX-XX веков и его значение в развитии феминистской критической литературы. В период викторианской Англии женские литературные произведения подвергались резкой критике со стороны писателей-мужчин, и именно из-за такого отношения к женскому интеллектуальному творчеству появилось эссе В. Вульф «Частная комната», способствовавшее развитию современной феминистской критической литературы. был принят литературной критикой.
**Ключевые слова:** феминизм, женское движение, патриархальное общество, антифеминистская теория.

## 1. Giriş

1929-cu ildə nəşr olunan və daha sonra feminizm nəzəriyyəsinin ən vacib mətni kimi tanınan "Şəxsi otaq" essesi, Virciniya Vulfun Kembric Universitetində o dövrdə aktual olan, qadınların ədəbiyyatdakı mövqeyi mövzusunda çıxış etdiyi iki məruzəsinə əsaslanır. O, ilk dəfə olaraq bu essesi ilə qadınların qadın baxışını və təcrübəsini ifadə etmək hüququnu, kişilərlə bərabər qadın yazıçıların da yazılarına dəyər verərək diqqət yetirmək hüququnu, qadının fərqli düşünmək və yazmaq kimi təbii hüququnu açıq şəkildə bəyan etdi. Ehtimal olunur ki, "Şəxsi

otağı"nda yazıçı öz feminist mövqeyini və nəzəriyyəsini açıqlaya bilmişdi. Qadınlar üçün maliyyə cəhətdən müstəqil olmağın əhəmiyyətini gündəmə gətirdiyi bu esse, qadınların patriarxal mədəniyyətdəki mövqeyi və qadın ədəbi ənənəsinin spesifikliyi probleminə toxunur. Bu esse 1929-cu ildə nəşr olunduğu gündən bəri ədəbiyyatşünaslar tərəfindən dəfələrlə nəzərdən keçirilmiş və təhlil edilmişdir. Onu da qeyd edək ki, bu esse V. Vulfun feminizmin ilk dalğası kimi xarakterizə olunan əsərlərindən biridir.

Bu essenin ideyasında V. Vulfun verdiyi sual durur: "V. Şekspirin ondan heç də az istedadlı olmayan bir bacısı olsaydı, necə olardı?". Nəticədə yazıçı V. Şekspirin bacısının istedadını reallaşdıra bilməyəcəyi, cəmiyyət tərəfindən zülm və repressiyaya məruz qalacağı və həyatını faciəvi şəkildə tamamlayacağı fikrinə gəlir. Bu qəhrəmanın mövcud taleyi haqqında düşünən Virginia Vulf, essedə əsas feminist ideya və fikirləri ortaya qoymuşdur.

## 2. Feminist ideologiyanın formalaşması və onun ingilis ədəbiyyatına təsiri romanında rəssam obrazı: sözə çevrilən rənglər

"Feminizm" anlayışına aşağıdakı əsas komponentlər daxildir: 1) qadının təbiəti, cəmiyyətdəki yeri və rolu, qadınların qlobal zülmünün xüsusiyyəti məsələlərini nəzərdən keçirən fəlsəfi nəzəriyyə; 2) qadın və kişi bərabərsizliyini, habelə qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması yollarını təhlil edən ictimai-siyasi nəzəriyyə; 3) ilk növbədə həyatın bütün sahələrində qadınların səlahiyyətlərinin artırılması yolu ilə cinslər arasında bərabərliyə nail olmağa yönəlmiş ictimai hərəkat; 4) qadınların maraqlarını ifadə edən və müxtəlif anti-feminist nəzəriyyə və təcrübələrə qarşı çıxan ideologiya; 5) qadınların dünyaya baxışını və onların dəyərlər sistemini ifadə edən tədqiqat metodologiyası.

Qadın məsələsinin hələ formalaşmadığı bir dövrdə söhbət feminizmdən yox, emansipasiyadan, yəni asılılıqdan, məhdudiyyətdən qurtulmaqdan gedirdi. 1830-cu il İyul inqilabı zamanı Fransada hər iki cinsin hüquqlarını bərabərləşdirməklə qadınları kişilərin hakimiyyətindən azad etmək istəyinin başlanğıcını ifadə edən "emancipation de la femme" - "qadının azadlığı" termini meydana çıxdı [3, s.122]. Məhz həmin dövrlərdə ilk feminist mətnlərdən birinə çevrilən və feminist nəzəriyyəyə təsir edən "Şəxsi otaq" essesi qadınların ədəbi sahədəki yaradıcı uğursuzluqlarının səbəblərini aşkar etdi və XIX əsrdə az sayda yazıçının öz məkanının (Şəxsi otaq) və müstəqil gəlirinin olmaması kimi maddi səbəblərlə izah oluna biləcəyi qənaətinə gəldi [1, s.80]. Essenin əsas müddəası: "hər bir yazar qadının vəsaiti və öz otağı olmalıdır" [7, s.3]. Essedə təsvir olunmuş "Şəxsi otaq" qadınların öz məişət və ailə qayğılarından bir anlıq da olsa uzaqlaşaraq, öz ədəbi dünyaları ilə tək, baş-başa qalmaq məkanı kimi xarakterizə olunur. Essedə qadınların "Şəxsi otağ"ı, günlərinin yarısını məlumat əldə etmək və vaxt keçirməklə məqsədi ilə, kişi məkanına (kabinet, kitabxana və s.) qarşı qoyulur.

Həmçinin, otaq qadın şəxsiyyətinin bir növ metaforasıdır. Qadın yaradıcılığından bəhs edən V. Vulf yazır: "Milyon illərdir ki, qadınlar "həbsdədir", ona görə də bu gün qadınların yaradıcı gücü ilə doymuş, artıq kərpic və əhəng udma qabiliyyətini aşmış divarların özləri də

fırçalara və qələmlərə, işə, siyasətə çıxmağı tələb edir." [7, s.26]. Beləliklə, şəxsi otaq təkcə şəxsi məkan deyil, həm də təzyiqlərdən və gender stereotiplərindən azad, qadının özü haqqında həqiqəti yaza biləcəyi bir yerdir. Kabinet, kitabxana qadınların əsrlər boyu girişi qadağan olunduğu gender etiketli məkanlardır; bunlar kişinin gücünü və muxtariyyətini təsdiqləməyə yönəlmiş patriarxal ideologiya tərəfindən dəstəklənir. Kabinet imtiyazlı bir yerdir,"evin ən qapalı otağı, yazıçının birbaşa müdaxilə etmədən həyatı əks etdirə biləcəyi bir yerdir" [1, s.82]. Buna görə də, V. Vulfun nöqteyi – nəzərincə, şəxsi otaq, onun təsviri qadın yaradıcılığının başlanğıcıdır, bu, prinsipcə qadın və onun yaradıcılığı haqqında söhbətin başlaya biləcəyi başlanğıc nöqtəsidir. "XIX əsrin əvvəllərində orta təbəqəli bir qadın sakit və kənar adamlardan kilidlənmədən öz otağını xəyal edə bilməzdi ... heç vaxt rahatlanmazdı..." [5, s.75]. Eyni zamanda, şəxsi otaq, şübhəsiz ki, qadınların maddi və sosial müstəqilliyi üçün bir metaforadır.

### 3. İngiltərədə qadın ədəbi ənənəsinin tarixindən

İngiltərədə qadın ədəbi ənənəsinin tarixindən bəhs edən V. Vulf, qadın dahisinin təzahürlərini tapmağın sadəcə mümkün olmadığı qənaətinə gəlir: XIX əsrə qədər qadınlar öz şəxsi məkanlarından və boş vaxtlarından səmərəli istifadədən məhrum edilmişdi, ağır işlərlə və uşaq böyüdüb tərbiyə etməklə yüklənmişdilər. Nadir istisnalarla, tarix orta təbəqəyə mənsub qadınların yaradıcılığına dair heç bir dəlil tapmır: "O, xatirələr gündəliklər yazmır; yalnız yazdığı bir neçə məktub salamat qalmışdır. Özündən sonra nə pyes, nə də bir şeir qoymasa, onu necə mühakimə edə bilərik?" [7, s.67]. Yazıçı, qadınların "qanun və qaydaların qoyduğu məcburiyyət ilə" erkən yaşlarından işə başladıqlarını da vurğulayır. Ona görə o dövrdə intellektual yaradıcılıqdan söhbət gedə bilməzdi [5, s. 68]. Bütün bu amillər qadın ədəbiyyatının inkişafına mane olurdu.

Essedə, patriarxal cəmiyyət tərəfindən qadın yaradıcılığına qoyulan hər cür məhdudiyyətlərin sübutu olaraq, Jane Austinin xatirələrindən bir parça da verilir: "O necə də hər şeyi yazmağı bacardı, axı onun şəxsi otağı yox idi və çox vaxt da hər zaman hər bir kəsin müdaxilə edə biləcəyi ümumi bir otaqda işləyirdi. O, qulluqçular və qonaqlardan kiminsə onun nə işlə məşğul olduğunu təxmin etməməsi üçün, tez-tez ətrafa göz gəzdirməli olurdu" [5, s. 76].

V. Vulfun doğulduğu Viktoriya İngiltərəsində, ciddi şəkildə müəyyən olunmuş gender rolları olan cəmiyyətlərdə ənənələr anadan qıza, atadan oğula ötürüldü. Tədqiqatçı K. Binder yazırdı:" ... qızların təhsilinin məqsədi onları evliliyə və evlilik həyatına hazırlamaq idisə, oğlanlar üçün isə təhsil gələcək peşə fəaliyyətlərinə və kariyeralarına hazırlaşmaq demək idi" [4, s. 34]. Yazıçı üçün ədəbi ənənə həm zövq mənbəyi, həm də onun mədəniyyətdə təsbit edilmiş qadınların intellektual qabiliyyətlərinin alçaldılmasını daim xatırlatması idi. Öz şəxsiyyətlərini və dünyadakı məkanlarını axtararkən, kişilərdən fərqli olaraq, qadınların etibar edəcəyi və istiqamətləndiriləcəyi bir şey yox idi, kişilərin arxasında "ənənə, qadınların arxasında isə boşluq ..." dayanırdı[1, s. 86].

Essedə qondarma kolleclərdən fərqli olaraq - Oksbric kimi sərhədsiz maliyə imkanları olan, divarları altında krallar, yepiskoplar və sahibkarlar tərəfindən verilmiş "bütün xəzinələri"

saxlayan kişi təhsil müəssisəsi, Fernham - tikintisi üçün pulu qadınlar "yavaş-yavaş, müqaviməti dəf edərək, güclərini, sağlamlıqlarını, vaxtlarını itirərək..." topladığı bir kollecə qarşı qoyulur. V. Vulf tarix və ədəbiyyatın kişilər tərəfindən yaradıldığını və onlarda qadınların əhəmiyyətinin ənənəvi olaraq aşağılandığını öz nəzəriyyəsində təsvir edirdi.

Essedəki qəhrəmanlar və məkanlar V. Vulfun tərcümeyi-halındakı epizodlara istinadlardır; məsələn, Fernham- yazıçının mühazirə oxuduğu Kembricdəki Nyuham Kollecidir. Qadınlar üçün təhsil müəssisələrinin maddi təminatının aşağı olmasının səbəblərini izah edən essenin qəhrəmanı Meri Setondur, kolleci idarə etməkdə təcrübəsi olan Ketrin Stiven Vulfun əmisi qızıdır [6, s. 82]. Kollec yeməkləri arasındakı fərq – Okcbricdə bolluq və firavanlıq, Fernhamdə seyrəklik ("xəyal edə bilməyəcəyiniz sadə bulyon") həm də ənənəvi "kişi" mədəni ənənəsində qadınların təcrid olunmasını simvollaşdırır.

İlk qadın təhsil müəssisələrinin yaradılması patriarxatın güclü müqavimətini dəf etməyi tələb edirdi. Tamamilə ailəyə bağlı olan bir qadın "ataların oğulları üçün etdiyi kimi, böyük ustalıqla pul qazanmağı və onu qızlarına titullar və təqaüdlər üçün vəsiyyət etməyi" öyrənə bilmədi və öz maliyyəsini təkbaşına idarə etmək hüququnu yalnız 1880 -ci ildə əldə etdi [7, s. 43].

Müasirlərinin vəziyyətindən danışan V. Vulf qeyd edir ki, cəmiyyət hələ də qadın yaradıcılığına düşmən münasibət bəsləyir, qadın yazıçılar isə "hər cür şəkildə alçaldılır və moizələrlə təhqir olunurlar". Həmçinin, XIX əsrdə qadınlar hələ də fəaliyyət azadlığı və məlumat əldə etmək baxımından məhrumiyyətlərlə üzləşirlər. Onların həyat təcrübəsi valideynlərinin evinin dörd divarı ilə məhdudlaşır. Burada "şəxsi otaq" anlayışı ailə üzvlərinin birgə yaşadığı, şəxsi və unikal olmayan "ümumi otaq" anlayışına qarşı çıxır. Öz gəlirlərinə sahib olmaq bacarığı, maliyə müstəqilliyi V. Vulfun fikrincə, qadına "dünyaya sərbəst baxmağı" öyrətdi.

Beləliklə, feminist hərəkata töhfə baxımından "Şəxsi otaq" essesi yazıçıları öz səslərini, öz ədəbi tarixlərini və ənənələrini qazanaraq Patriarxlığın hökmranlığına qarşı bir növ "üsyan" etməyə təşviq etmək baxımından əhəmiyyətlidir.

Yazıçı müasirlərini "ümumi otaqda öz guşəsi" ilə kifayətlənməməyə, "öz otaqlarında məskunlaşmağa, fikirlərini sərbəst və açıq şəkildə ifadə etmək vərdişini inkişaf etdirməyə, nəhayət, hər cür maneələrə qarşı tək sinə gəlməyə çağırırdı...» [7, s. 95].

Artıq qeyd olunduğu kimi, "Şəxsi otaq" essesi nəşr olunandan bəri bir çox tənqidçilər və ədəbiyyatşünaslar tərəfindən təhlil edilmişdir. Yazıçı A. Bennet və ədəbiyyatşünas D. Deyçez "Şəxsi otağ"ı feminist nöqteyi-nəzərdən təhlil etməyə cəhd edən müəlliflər sırasındadır. Lakin onların araşdırmalarının nəticələri üst-üstə düşmədi. A. Bennett, "Şəxsi otağ"ın feminist əsər olmadığı qənaətinə gəldi. Müəllif həmçinin V. Vulfun qadınlarla bağlı siyasi ideyalarının mahiyyətini rədd edir və esseni, yazıçının qadın və bədii ədəbiyyat haqqında düşüncələrini heçə endirir. D. Deyçez isə əksinə "Şəxsi otağ"ın sırf feminist əsər olduğunu iddia edir və üstəlik, yalnız qadınların ədəbiyyatdakı və cəmiyyətdəki mövqeyini deyil, maddi məhdudiyyətlər

səbəbindən istedadlarını inkişaf etdirmək imkanından məhrum olan bütün istedadlı insanları da əhatə etdiyini iddia edir. A. Bennett V. Vulfun essesində feminist mövqenin olduğunu inkar etsə də, D. Deyçez onun feminizmini universal olaraq təyin edir.

Beləliklə, V. Vulfun esselərinin təhlili və konkret olaraq "Şəxsi otaq" essesi bu günə qədər müxtəlif perspektivlərdən tədqiqatçıları tamamilə fərqli nəticələrə gətirir.

Bununla belə, V.Vulfun yaradıcılığında M. Volstounkraft, J.S.Mill kimi əvvəlki müəlliflərin əsərlərində təsbit edilən feminist proqramı anlayışı, eləcə də feminist tənqidin inkişafına təsir edən mövqeyinin formalaşması bir fakt olaraq qalır.

**Nəticə**. İngiltərədə feminist hərəkatı ilk dəfə 18-ci əsrin sonlarında başladı. Modernizm ədəbiyyatının görkəmli nümayəndəsi V. Vulf feminist hərəkatının, eləcə də qadın ədəbiyyatının mühüm şəxsiyyətlərindən biri hesab olunur. Məhz V.Vulf ilk dəfə açıq şəkildə qadınlardan sərbəst yaradıcılığa çıxışı, patriarxal ənənədən asılı olmayaraq öz ədəbi ənənələrini yaratmağı tələb edirdi. V. Vulf, şəxsi təcrübə prizmasından qadın problemləri haqqında danışan və bunu qadınların ümumi sosial təcrübəsində ümumiləşdirən ilk yazıçıdır. Feminizmin ilk dalğası hesab olunan "Şəxsi otaq" essesi patriarxal mədəniyyətdə qadınların mövqeyi probleminə və qadın ədəbi ənənəsinin spesifikliyinə toxunur. V. Vulf burada qadın ədəbi ənənəsinin inkişaf problemlərinin səbəbini tapır. Bunlar qadınların patriarxal cəmiyyətdə bərqərar olmuş, əsrlər boyu davam edən və qadınları kişilərlə bərabər mövqe tutmaq şansından məhrum edən sosial-mədəni məhdudiyyətlərdir. "Şəxsi otaq" essesi feminist hərəkata töhfə baxımından qadın yazıçıları öz səsini, öz ədəbiyyat tarixini və ənənələrini taparaq patriarxatın hökmranlığına qarşı "üsyana" sövq etmək baxımından əhəmiyyətlidir.

### Ədəbiyyat


1. Бережная М.С. (2017), «Своя комната» Вирджинии Вульф: пространственная метафора в историко-культурном и гендерном прочтении. Вестник Пермского Университета / отв. ред. Янковская Г.А. Пермь. – Т 9. Российская и зарубежная филология. Вып. 3, с. 80-87.
2. Володарская Л.И., Гениева Е.Ю. (2009), Вирджиния Вульф: дневник писательницы. М.: Центр книги ВГБИЛ им. М.И. Рудомино, 480 с.
3. Денисова А.А. (2002), Словарь гендерных терминов. М.: Информация. 256 с.
4. Binder C.M. (2014), From innocence to experience. Re-constructions of childhood in Victorian women's autobiography – Trier: WVT Wissenscaftlicher Verlag Trier, 402 p.
5. Blair E. (2002), Virginia Woolf and the nineteenth-century domestic novel. N.Y.: SUNY Press, 287 p.
6. Halirova M. (2016), The Development of Feminism in English Literature of the 19th and 20th centuries. Olomouc: Palacký University, 43 p.
7. Woolf V. (1929), A Room of One's Own. London: Hogarth Press, 96 p.